## Xidmətin məzmunu :
Əmlakdan istifadə edilməsi və ona sərəncam verilməsi barədə, avtomaşınların müvəqqəti istifadəyə verilməsinə dair etibarnamələr istisna olmaqla etibarnamələrin təsdiq edilməsi

## Xidmətin aid olduğu təsnifat :
Notariat fəaliyyəti

## Xidməti həyata keçirən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı :
İcra Hakimiyyəti Başçısının qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndələri

## Xidmətin hüquqi əsası :
- "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 15, 18, 45, və 49 maddələri
- "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2000-ci il tarixli 261 №-li Fərmanının 3-cü bəndinin 4-cü abzası
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli 167 №-li Qərarı ilə təsdiq edilmiş " Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 75 və 79-cu bəndləri
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 avqust 2000-ci il tarixli 148 №-li Qərarı ilə təsdiq edilmiş "Notariat hərəkətlərinin qeydi üçün reyestrlərin, notariat şəhadətnamələrinin, əqdlərdə və təsdiq edilən sənədlərdə təsdiq qeydlərinin formaları" 30, 31 və 32 nömrəli Formalar
- Azərbaycan Respublikası Prezidentinin 06 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 5.2-cü bəndi.

## Xidmətin həyata keçirilmə formaları :
Xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız daşıyıcısında təqdim olunması

## Xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması :
Telefon vasitəsilə məlumatlandırma

## Xidmətin həyata keçirilməsinin nəticəsi :
Əmlakdan istifadə edilməsi və ona sərəncam verilməsi barədə, avtomaşınların müvəqqəti istifadəyə verilməsinə dair etibarnamələr istisna olmaqla etibarnamələrin təsdiqi

## Xidmət istifadəçisi barədə məlumat :
- Fiziki şəxslər
- Hüquqi şəxslər

## Xidmətin həyata keçirilməsi müddəti, Dövlət rüsumu, Xidmət haqqı, Ödənişin hüquqi əsası :

| | | |
|---|---|---|
| **Müddət (Məbləğ) :** | 1 iş günü | 1 iş günü |
| **Rüsum :** | 10 AZN | 5 AZN |
| **Xidmət haqqı :** | 1.5 AZN | 0.75 AZN |
| **Ödənişlə bağlı qeyd :** | - “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsinə görə notariat hərəkətlərinin aparılmasına görə aşağıdakı hallarda dövlət rüsumu ödənilmir: - Pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üzrə. | - “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsinə görə notariat hərəkətlərinin aparılmasına görə aşağıdakı hallarda dövlət rüsumu ödənilmir: - Pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üzrə. |
| **Ödənişin hüquqi əsası :** | - "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 10.12. maddəsinə görə nəqliyyat vasitələrindən istifadə edilməsi və başqa etibarnamələrin təsdiqi üçün:<br>- Etibarnamə ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya verilirsə - 5 manat<br>- Etibarnamə digər şəxslərə verilirsə - 10 manat | - "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 10.12. maddəsinə görə nəqliyyat vasitələrindən istifadə edilməsi və başqa etibarnamələrin təsdiqi üçün:<br>- Etibarnamə ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya verilirsə - 5 manat<br>- Etibarnamə digər şəxslərə verilirsə - 10 manat |

## Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti :

Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00)

## Xidmətin göstərilmə yeri :

- Şəki Şəhər İcra Hakimiyyəti Başçısının qəsəbə, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri;
- Xəstəlik nəticəsində, əlilliklə, sağlamlıq imkanlarının məhdudluğu ilə əlaqədar olaraq və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda şəxsin dövlət icra hakimiyyətinin nümayəndəliyinin işlədiyi binaya (otağa) gələ bilmədiyi hallarda nəqliyyat vasitəsi ilə təmin edildikdən və ya maraqlı şəxs tərəfindən faktiki nəqliyyat xərcləri ödənildikdən sonra notariat hərəkətləri bu binalardan (otaqlardan) kənarda da aparıla bilər.

## Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları :

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli 167 №-li Qərarı ilə təsdiq edilmiş " Notariat hərəkətlərinin

aparılması qaydaları haqqında Təlimat"ın 16-cı bəndinə görə Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ayrı qayda nəzərdə tutulmadıqda, notariat hərəkətləri bunun üçün lazım olan bütün sənədlərin təqdim olunduğu və dövlət rüsumu və müəyyən edilmiş hallarda haqq ödənildiyi gün aparılır. Xidmət edən aşağıda göstərilən hallarda xidmətin həyata keçirilməsindən imtina edə bilər:
- Əgər notariat hərəkətlərinin aparılması qanuna ziddirsə;
- hərəkət başqa notariat orqanı tərəfindən aparılmalıdırsa;
- notariat hərəkətinin aparılması üçün fəaliyyət qabiliyyəti olmayan şəxs, yaxud lazımi səlahiyyəti olmayan nümayəndə müraciət etmişsə;
- sənədlər qanunvericiliyin tələblərinə uyğun gəlmirsə.
- Xidmət edən notariat hərəkətinin aparılmasına rədd cavabı almış şəxsin xahişi ilə üç gün müddətində imtinanın səbəbləri barəsində əsaslandırılmış qərar çıxarmalı və ondan şikayət verilməsi qaydasını izah etməlidir.

## Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması :

**Tələb olunan sənədin adı**
- Tələb olunan sənədin təqdimedilmə forması

**Etibar edilənin (edilənlərin) şəxsiyyətini təsdiq edən sənəd (sənədlər)**
- Kağız daşıyıcıda

**Etibar edənin (edənlərin) şəxsiyyətini təsdiq edən sənəd (sənədlər)**
- Kağız daşıyıcıda

## Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar :
- Notariat hərəkətlərini apararkən İcra Hakimiyyətinin nümayəndəliyi hər bir halda notariat hərəkətlərinin aparılması üçün müraciət etmiş şəxslərin, onların nümayəndələrinin və ya hüquqi şəxslərin nümayəndələrinin şəxsiyyətini müəyyən edirlər.
- Əqdlər təsdiq edilərkən əqddə iştirak edən şəxslərin fəaliyyət qabiliyyəti aydınlaşdırılır və hüquqi şəxslərin hüquq qabiliyyəti yoxlanılır. Əqd nümayəndə tərəfindən aparıldıqda onun səlahiyyəti yoxlanılır.
- İcra Hakimiyyətinin nümayəndəliyi bir və ya bir neçə şəxs adından bir və ya bir neçə şəxsin adına verilən etibarnaməni təsdiq edə bilər.
- Etibarnamə istənilən (nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə istisna olmaqla) müddətə verilə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o, verildiyi gündən bir il ərzində qüvvəsini saxlayır. Verildiyi tarix göstərilməyən etibarnamə etibarsızdır.
- Etibarnamənin mətnində onun tərtib edildiyi (imzalandığı) yer və vaxt, nümayəndənin və ya təmsil olunanın soyadı, adı, atasının adı (hüquqi şəxsin tam adı) və yaşayış yeri (hüququ şəxsin olduğu yer), lazımi hallarda isə vəzifəsi göstərilməlidir. Vəkillərin adına etibarnamələrdə vəkillərin iş yeri (hüquq məsləhətxanası) göstərilir.
- Etibarnamənin qüvvədə olma müddəti sözlə yazılır.

## Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar :
- İstifadəçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-ci maddəsinə əsasən inzibati aktdan, inzibati aktın qəbul

edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən Rayon İcra Hakimiyyətinə və ya Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə inzibati qaydada şikayət edə bilər.
- Ərizə və ya şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsinə əsasən 1 (bir) ay müddətində baxılır.

## Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları :

Yoxdur

## Xidmətin həyata keçirilməsində istifadə edilən fərdi məlumatların informasiya sistemləri :

Yoxdur

## Xidmətin elektronlaşma səviyyəsi :

Elektronlaşdırılmayıb

## Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi :

Avtomatlaşdırılmayıb

# Şəki Şəhər İcra Hakimiyyəti


| | |
|---|---|
| **Ünvan:** | Az 5500 20 Yanvar küçəsi, 8 |
| **Telefon:**<br>**Faks:** | (024) 244-33-23<br>(024) 244-39-94 |
| **E-poçt:** | mail@sheki-ih.gov.az |
| **Rəsmi internet informasiya ehtiyatının ünvanı:** | sheki-ih.gov.az |
| **VÖEN:** | 3000072051 |
| **Ödəmə rekvizitləri:** | A 1. Emitent (ödəyən) bank<br>Adı: Kapital bank Şəki filialı<br>Kodu: 200703<br>VÖEN: 9900003611 |

| | |
|---|---|
| | Müxbir hesabı: AZ37NABZ01350100000000001944<br>S.Ü.İ.F.T. BİK: AIIBAZ2X<br><br>A 2. Ödəyən müştəri<br>Adı: Şəki Yerli Xəzinədarlıq Orqanı (YXO)<br>Hesab nömrəsi: AZ03AIIB32051019447000201170<br>VÖEN: 3000104011 |
| **İş qrafiki və orqan tərəfindən zəruri hesab edilən digər məlumatlar:** | Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00) |